# "Ölüm var ki, həyat qədər dəyərli..."

**Hüseyn Cavid (1882-1941) Azərbaycan ədəbi fikrində və dramaturgiyasında yeni bir dövr, yeni mərhələ yaratmış ziyalı, ədəbiyyatın romantizm cərəyanının ən görkəmli nümayəndəsidir. O, Naxçıvanda dünyaya gəlmiş, ilk təhsilini mollaxanada alsa da, sonradan müasir məktəblərdə təhsil alaraq daha geniş dünyagörüşünə yiyələnmişdir.**



İstanbul Universitetində ədəbiyyat və fəlsəfə üzrə təhsil alması onun dünyəvi baxışlarının formalaşmasında mühüm rol oynayıb. Cavid yaradıcılığında insan, mənəviyyat və ilahi eşq mövzularını ön planda saxlayaraq həm şeirləri, həm də dram əsərləri ilə ədəbiyyatda əbədi iz buraxmışdır. Onun "İblis", "Şeyx Sənan", "Səyavuş" kimi əsərləri dünya və Azərbaycan ədəbiyyatının qiymətli nümunələrindən sayılır, yaradıcılığı yalnız ədəbi dəyəri ilə deyil, həm də bəşəri-fəlsəfi mesajları ilə seçilir. Cavidin "Ölüm var ki, həyat qədər dəyərli..." misrası, insanın mənalı həyat uğrunda mübarizəsini və mənəviyyatını tərənnüm edir. Hüseyn Cavid əsərlərində ümumbəşəri problemləri qabardıb, onların həlli yolları, mədəni problemləri ön plana çəkmişdir. Şairin yaradıcılığı bir dəryadır və bu dəryaya baş vuran, öyrənən hər kəs bu əsərlərdə hər dəfə yenilik, müxtəlif psixoloji - sosioloji, fəlsəfi düşüncələr haqqında düşünməyə vadar edir.

Hüseyn Cavidin yaradıcılığı çar Rusiyasının son dövrlərinə, Azərbaycan Xalq Cümhuriyyətinin fəaliyyəti dövrünə və Sovet hakimiyyətinin ilk illərinə təsadüf edir. Bu dövrlər siyasi qeyrisabitlik, milli azadlıq hərəkatları və mədəni transformasiyalarla xarakterizə olunur. Çarizmə qarşı mübarizənin gərginliyi Cavidin əsərlərində millət, azadlıq və mənəviyyat mövzularının əhəmiyyətini artırıb. Cavid əfəndi azad düşüncəli sosializmin uğurlarından yazmayan bir filosof-şair kimi ədəbiyyatımızda dəyərli bir iz qoyub. "Turanı qoruyun!" deyərək həm ailə üzvlərinə, həm də gələcək nəsillərə bir ismarış qoyub dahi türkçü-filosof Cavid. Hüseyn Cavid öz dəst-xəttinə sadiq qalaraq Azərbaycan və Türkiyə türkcəsinin qarışığından yaranan şirin bir şivə ilə yazıb-yaratmağa davam edib, əsərlərində iki türk hökmdarı Sultan Bəyazid və Teymurləngin döyüşünü ürəkağrısı ilə qələmə alıb. Bu, qanlı-qadalı 37-ci illər üçün qəbuledilməz bir faktor idi. Beləcə, 1937-ci ilin qanlı terroru Cavid əfəndidən də yan keçmədi. İdeoloji təzyiqlər Cavidin romantik və bəşəri dəyərlərə əsaslanan yaradıcılığını təhdid etdi. Onun dini və fəlsəfi motivləri, xüsusən də azad düşüncə ilə əlaqəli fikirləri o dövrün ideologiyasına uyğun gəlmədiyindən Hüseyn Cavid repressiyalara məruz qaldı. Yazdıqlarına və düşündüklərinə görə uzaq şaxtalı Sibirə sürgün edilir və burada vəfat edir, 1941-ci ilin 5 dekabrında 59 nömrəli qəbirdə, kimsəsizlər qəbiristanlığında dəfn edilir. 5 dekabr 1941-ci il uzaq Sibirdə Azərbaycan ədəbi cərəyanının əsas nümayəndəsi milli romantik və mənzum faciənin banisi Hüseyn Cavid gözlərini əbədi olaraq yumub. Cavid üçün ölüm mənəvi yüksəlişin bir növ nəticəsi ola bilər. O, ölümdən qorxmağı deyil, mənasız həyatdan çəkinməyi təlqin edirdi. "İblis" əsərində bu fikir açıq şəkildə görünür: mənəviyyatını itirmiş bir insanın yaşadığı həyat ölümdən daha zəlil bir haldır.

Hüseyn Cavidin həyat və ölüm anlayışı onun əsərlərində olduğu kimi, taleyində də əksini tapmışdır. Sovet rejiminin ona qarşı haqsızlığı və sürgün həyatı onun fiziki olaraq əzab çəkməsinə səbəb olsa da, bu, onun mənəvi dəyərlərinə və inancına xələl gətirmədi. Cavid şəxsiyyət bütövlüyünü, azad düşüncəsini və bəşəri ideallarını sonadək qorudu. Bu, onun üçün mənəvi qələbə idi.

Cavidin sürgündəki ölümü onun mənəvi ucalığını bir daha vurğuladı. Çünki o, prinsipial mövqeyindən, ədalət və həqiqətə olan bağlılığından vaz keçmədi. Bu hal onun üçün bir növ ilahi bir missiya kimi qəbul edilə bilər. O, öz həyatını mənəviyyata, bəşəri dəyərlərə həsr edərək şəxsiyyətinin ali zirvəsini nümayiş etdirdi.

"Ölüm var ki, həyat qədər dəyərli..." ifadəsi onun taleyini ən yaxşı təsvir edən sözlərdən biridir. Cavidin ölümü onu mənəvi ucalığa çatdıraraq ideallarını zaman və məkan sərhədlərindən kənara çıxardı. Bu gün onun adı Azərbaycan xalqının mənəvi yaddaşında əbədi yaşayır.

Beləliklə, Hüseyn Cavidin ölümü mənəvi kamillik, öz dəyərlərinə sadiqlik və ədəbiyyat yolunda fədakarlığın ən ali nümunəsi kimi qəbul edilə bilər. Onun həyatı və ölümü arasında dərin bir harmoniya var ki, bu da böyük şəxsiyyətlərə məxsus bir xüsusiyyətdir.

Cavid haqqında repressiya illərində artıq danışılmırdı, əsərləri təhlil edilmirdi. Cavid artıq "unudulur"du. 1956-cı ildən başlayaraq, sovet imperiyası daxilində bir "yumşalma" kursu müşahidə olunur və repressiya qurbanlarına bəraət verilməyə başlayıb, Hüseyn Cavidə də bəraət verilir. Lakin bəraətdən sonra da hələ də hər kəsin canında bir xof olur, hələ də Cavidin irsi tam öyrənilib, tədqiq olunmur. Cavidin əsl bəraəti 1981-ci ildə başlayıb. Bu dövrə qədər isə 2 dəfə Cavidin nəşinin Azərbaycana gətirilməsi məsələsi gündəmə gəlsə də, lakin nəticəsiz qalır.

Ümummilli lider Heydər Əliyevin hakimiyyətə gəlişi ilə digər sahələrdə olduğu kimi, ədəbiyyat və mədəniyyət sahəsində də bir canlanma başladı. Aparılan tədbirlər nəticəsində nəhayət, Cavidin ruhu da rahatlıq tapdı. Dahi liderin tapşırığı və səyləri nəticəsində Cavidin nəşi Azərbaycana gətirildi, 1920-1937-ci illərdə İstiqlaliyyət küçəsindəki yaşadığı evdə anım mərasimindən sonra doğma ata-baba yurdu qədim Naxçıvanda dəfn olundu. Ümummilli lider Heydər Əliyevin misilsiz xidmətləri sayəsində Hüseyn Cavidin nəşinin Azərbaycana gətirməsi özü-özlüyündə böyük tarixi bir hadisədir, ona görə ki, hələ heç bir repressiya qurbanı olan ziyalının nəşi vətəninə gətirilib dəfn olunmayıb. Bu misilsiz xidmətləri yalnız Azərbaycanı sevən, Azərbaycan ədəbiyyatını, tarixini, mədəniyyətini sevən bir ata, bir vəfalı övlad edə bilərdi.

Ümummilli lider Heydər Əliyev Hüseyn Cavidin Azərbaycan ədəbiyyatı və mədəniyyətindəki yerini çox yüksək qiymətləndirir, onun şəxsiyyətini və yaradıcılığını milli irsimizin əvəzolunmaz bir parçası kimi görürdü. Ulu öndər ədəbiyyatın və incəsənətin böyük şəxsiyyətlərinə göstərilən diqqət və qayğının xalqın mədəni inkişafında mühüm rol oynadığını düşünürdü. Hüseyn Cavidin xatirəsinə bu diqqət onun Azərbaycan xalqının milli kimliyini və mənəvi zənginliyini dünyaya tanıtmaq istiqamətində atdığı addımlardan biri idi. Dahi lider Heydər Əliyev Cavidin yubiley tədbirlərinin keçirilməsinə, onun əsərlərinin nəşrinə və irsinin tədqiq olunmasına xüsusi diqqət yetirirdi. Naxçıvanda Hüseyn Cavidin məqbərəsinin ucaldılması da məhz bu qayğının ən gözəl nümunəsidir. Dahi Lider bu məqbərənin açılışında çıxış edərək Hüseyn Cavidin şəxsiyyətini "Azərbaycan xalqının şərəfi və qüruru" kimi səciyyələndirmişdi. Hüseyn Cavidə olan münasibət, ümumilikdə, Azərbaycanın milli-mədəni irsinə olan hörmətin və bağlılığın bariz nümunəsidir. Onun təşəbbüsləri sayəsində Cavidin adı yalnız bir şair və dramaturq kimi deyil, həm də mənəviyyat və milli dəyərlər yolunda mübarizə aparan böyük şəxsiyyət kimi yaddaşlarda əbədi qaldı.

**Nübar SƏFİYAR qızı,**
**Hüseyn Cavidin Ev-Muzeyinin böyük elmi işçisi.**